UOT 37.

***Sədaqət Ağarəhim qızı Əliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# SOSİAL İSTİQAMƏTLƏNMİŞ UŞAQ XALQ PEDAQOGİKASININ MƏQSƏDİ VƏ İDEALI KİMİ

***Садагет Агарагим кызы Алиева***
*доктор философии по педагогике*
*Азербайджанский Государственный Педагогический Университет*

# СОЦИАЛЬНО-ОРИЕНТИРОВАННЫЙ РЕБЕНОК КАК ЦЕЛЬ И ИДЕАЛ НАРОДНОЙ ПЕДАГОГИКИ

***Sadaqat Agharahim Alieva***
*doctor of philosophy in pedagogy*
*Azerbaijan State Pedagogical University*

# SOCİALLY-ORİENTED CHİLD AS THE GOAL AND İDEAL OF FOLK PEDAGOGY

**Xülasə:** Məktəbəqədər yaşlı uşaqların sosiallaşması onların həyatında mühüm rol oynayır. Bu məqsədlə bir çox vasitələrdən istifadə oluna bilər. Nağıllar vasitəsilə uşaqların hərtərəfli tərbiyəsinə nail olmaq mümkündür. Eyni zamanda uşaqların cəmiyyətə uyğunlaşması üçün də nağılların böyük rolu vardır. Həm ailədə, həm də məktəbəqədər müəssisələrdə nağılların imkanlarından geniş istifadə edilməlidir. Məqalədə məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında başqa vasitələrlə yanaşı xalqın əsrlər boyu tərbiyə mənbəyi kimi istifadə etdiyi nağılların sosial imkanlarından və əhəmiyyətindən bəhs edilmişdir.
***Açar sözlər:*** *sosiallaşma, adaptasiya, nağıl, ailə, uşaq, cəmiyyət.*

**Резюме:** В статье говорится о важности и социальных возможностях сказок, веками использованных в качестве источника воспитания в социализации детей дошкольного возраста.
***Ключевые слова:*** *социализация, адаптация, сказка, семья, ребенок, общество.*

**Summary:** In the article it is told about importance and social opportunities of the fairy tales used for centuries as an education source in socialization of children of preschool age.
***Keywords:*** *socialization, adaptation, fairy tale, family, child, society.*

Şəxsiyyətin sosiallaşması onun cəmiyyətə daxil olması, sosial təcrübəni – davranış nümunələrini, norma və dəyərləri mənimsəməsi, insanlar arasında özünü təsdiq etməsi və şəxsiyyətə çevrilməsidir. Bu mənada sosiallaşma şəxsiyyətin inkişafı və formalaşması ilə üst-üstə düşür. Şəxsiyyətin həm inkişafında, həm də formalaşmasında sosial mühit üç vacib amildən biridir.

Sosiallaşma fərdin mədəniyyətə, təlimə və tərbiyəyə qoşulmasının bütün formalarını əhatə edir, lakin sosiallaşma termini təhsil və tərbiyə anlayışlarından daha geniş əhatə dairəsinə malikdir. Sosiallaşmanın gedişində sosial keyfiyyətlərin, xüsusiyyətlərin formalaşması baş verir. Nəticədə insan bioloji varlıqdan tədricən cəmiyyətdə yaşaya və fəaliyyət göstərə bilən sosial varlığa çevrilir.

Sosiallaşma insanın dünyaya gəlməsi ilə başlayan və bütün həyatı boyu davam edən prosesdir. İnsan dünyaya gələndən sosial ehtiyaclar meydana gəlir, çünki o, sosial bir varlıqdır və içində yaşadığı sosial həyatın bir hissəsini təşkil edir. İnsanın bu ehtiyacı isə onun sosiallaşması ilə təmin olunur. İnsanın cəmiyyətə məxsus ola bilməsi üçün norma və dəyərləri, adət - ənənələri mənimsəməsi lazımdır. Bu prosesdə müvafiq cəmiyyətdəki insanlarla qarşılıqlı münasibətdə sosiallaşaraq şəxsiyyətə çevrilir.

Sosiallaşma insanların cəmiyyətdə müəyyən rollara yiyələnməsini təmin edir. Bu sosial rollar insanlarda müəyyən davranış normalarının formalaşdırılmasını tələb edir ki, müəyyən məkan və zamanda insan sosial rolunu yerinə yetirə bilsin. İnsanı əhatə edən sosial mühit anadan olduğu andan ömrünün sonuna qədər dəyişir və özü ilə birlikdə insanın rolunu da dəyişir. Burada iş sadəcə rolların mənimsənilməsi ilə bitmir, eyni zamanda insan bu prosesdə cəmiyyətə xas mədəniyyəti də öyrənir.

Sosiallaşma prosesinin təməli ailədə qoyulur. Hər bir fərd gözünü ailədə açır və ilk sosiallaşdığı yer də onun öz ailəsidir. İnsan ailədən cəmiyyətə daxil olur. Ailə tərəfindən qarşılanmayan sosioloji ehtiyaclar fərddə müəyyən boşluqların yaranmasına gətirib çıxarır. Lakin valideynlərin və bütövlükdə ailənin təsiri geniş sosiallaşma prosesinin yalnız bircə elementi kimi qəbul edilir.

Uşaqların cəmiyyətə inteqrasiyası mürəkkəb və çoxcəhətli sosiallaşma proseslərindən başlayır, bu proseslərin axarında da inkişaf edir. Sosiallaşma prosesində insan sosial təcrübəni mənimsədikcə daima yeni situasiyalarla rastlaşır. Bu prosesdə insanda şəxsiyyətə məxsus xüsusiyyətlər formalaşır və nəticədə sosial cəhətdən əhəmiyyətli keyfiyyətlərə yiyələnmiş şəxsiyyət formalaşır.

Məktəbəqədər illər uşağın sürətlə sosiallaşdığı dövrdür. Məktəbəqədər yaşlı uşaqların sosiallaşması o deməkdir ki, uşaqlar cəmiyyətə uyğunlaşdırılmış şəkildə elə tərbiyə olunur ki, onlar böyüdükdə cəmiyyətə fayda gətirəcək böyüklər ola bilsinlər və həm işdə, həm evdə, həmkarları, ailələri və dostları ilə qarşılıqlı hörmətə əsaslanan ünsiyyət qura bilsinlər. Uşaqların önəmli inkişaf mərhələlərindən olan sosiallaşma ən az digər inkişaf sahələri qədər vacibdir. Uşağın doğulduğu gündən etibarən çevrəsindəki şəxslərlə münasibətə girmə cəhdi, sosiallaşmanın ilk addımları kimi qəbul edilir. Körpəlik və ilk uşaqlıq dövrlərində uşaq ətrafındakı insanlarla ünsiyyətə girərək onların sosial dünyasını anlayır. Beləcə uşaq böyüklərin davranışlarını təqlid edərək öyrənməyə də başlayar. Uşağın məktəbə başlaması ilə birlikdə sosial əhatə dairəsi də dəyişər.

Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında bir çox vasitələrdən istifadə oluna bilər. Bu dövrdə uşaqların sosiallaşması üçün ən qədim vasitələrdən – xalq tərbiyəsi vasitələrindən istifadə etmək lazımdır. Çünki bu vasitələr əsrlər boyu yetişən nəslin tərbiyəsində istifadə olunmuş və özünü doğrultmuşdur. Bunlardan biri də uşağın sosiallaşmasına istiqamətlənən və xalqın tərbiyə məqsədilə yaratdığı nağıllardır. Nağıllar vasitəsilə uşaqların hərtərəfli tərbiyəsinə nail olmaq mümkündür. Eyni zamanda uşaqların cəmiyyətə uyğunlaşması üçün də nağılların böyük əhəmiyyəti vardır. Həm ailədə, həm də məktəbəqədər müəssisələrdə nağılların imkanlarından geniş istifadə edilməlidir.

Məktəbəqədər müəssisələrdə ana dili və nitq inkişafı məşğələsində hər hansı bir nağılın məqsədəuyğun və maraqla oxunması, düzgün və aydın təhlil edilməsi məsələnin həlli baxımından qənaətbəxşdir. Nağıllarla işin müxtəlif formaları vardır: nağılların oxunması, onların danışılması, nağıl qəhrəmanlarının davranışının, onların nailiyyətlərinin və uğursuzluqlarının səbəblərinin müzakirəsi və s. Bu isə tərbiyəçidən eyni zamanda pedaqoji ustalıq, tərbiyələndirdiyi hər bir uşağın fərdi xüsusiyyətlərini, xarakterini nəzərə almağı tələb edir. Xalq pedaqogikasında hər kiçik bir şeyin öz mənası, əhəmiyyəti, hər fikrin bir başlanğıcı, bir nəticəsi vardır. Hətta kiçik həcmli nağıl da müdrik pedaqoji fəlsəfəyə və hər söz də mənaya malikdir. Bu barədə uşaqlarla müzakirə yürütmək olar. Nağıllar - qeyri-adi pedaqoji imkanların və mənəvi potensialın məcmusudur. Beləliklə, nağıllar vasitəsilə bütöv fəlsəfi konsepsiya, müdriklik və yüksək poetiklik, həmçinin böyük söz ehtiyatı, söz vasitələri və metodları üzə çıxır. Nağıllar uşaqların təfəkkürünün, nitqinin, lüğət ehtiyatının inkişafına kömək etməklə yanaşı ətraf aləm haqqında biliklərini və təsəvvürlərini zənginləşdirir, uşaqların sosiallaşmasını təmin edir. Uşaqlar nağıllarda yeni sözlər eşidir və eşitdiyi sözlərin mənasını dərk edir.

Nağıllar birbaşa uşaqların mənəvi tərbiyəsinə müsbət təsir göstərir. Mənəvi tərbiyənin ilk cücərtiləri nağıllar vasitəsilə cücərir. Uşaqlar nağıllar vasitəsilə ilk dəfə yaxşı və pis anlayışlarının mənasını başa düşürlər və haqq-nahaq, ədalət-ədalətsizlik, yaxşılıq-pislik haqqında ilk təsəvvürlərə yiyələnirlər. Yaxşı insanların hərəkətlərinə rəğbət, pis əməl sahiblərinin hərəkətlərinə nifrət bəsləyirlər.

Azərbaycan nağıllarında xalqın milli xüsusiyyətləri, adət-ənənələri, məişət tərzi, dünyagörüşü, həyata münasibəti çox sadə bir formada öz əksini tapır. Eyni zamanda nağıllarda el içərisində olmaq, elin tələb etdiyi qayda-qanunlara əməl etmək, insanları sevmək, yardım etmək və s. fikirlər irəli sürülür. Nağıllarda tövsiyələr, öyüd və nəsihətlər müdrik insanların həyat təcrübəsinə əsaslanır və dinləyiciyə necə yaşamaq, necə davranmaq qaydaları öyrədir. Nağıllarda xalq öyüd-nəsihətlərini hadisələrin nəticəsi kimi verir, öz təcrübələrinin və müşahidələrinin nəticəsində gəldikləri qənaətlərini, arzu və istəklərini əksər hallarda dinləyicilərə qəhrəmanların dili ilə, əməli ilə çatdırır.

Nağılları öyrətməkdə məqsəd uşağın şüur, hiss və iradəsini, dünyabaxışını və davranışını formalaşdırmaqdan, əxlaqi münasibət qaydaları sahəsində nənə və babaların təcrübəsini uşaqlara mənimsətməkdən, gənc nəsildə yaxşı hərəkətə, gözəl fikrə və mədəni davranışa daxili tələbat doğurmaqdan, pis hərəkətlərin qarşısını almaqdan, uşaqları sosial mühitə və buradakı sosial münasibətlərə alışdırmaqdan ibarət olmuşdur. Nağıllar hələ qədimdən ulularımızın gənc nəsli tərbiyə etmək vasitəsi olmuşdur və burada öz əksini tapmış tərbiyəvi fikirlər bu günün də tələblərinə cavab verir. Nağıllardan uşaq bağçaları ilə yanaşı ailələrdə də, uşaqların yaş, anlaq səviyyəsinə uyğun olaraq seçilib söylənilməli və onlara xalq tərəfindən təqdir olunan mənəvi keyfiyyətlər və tənqid olunan mənfi sifətlər barədə məlumat verilməlidir. Zəhmətkeş kütlələrin yaratdığı nağıllar məhz tərbiyə məqsədilə yaradılmışdır. Nağılların yaşamasına və bu günə qədər gəlib çatmasına səbəb isə onun tərbiyənin bütün sahələrində tərbiyəedicilik qüvvəsini doğrultması və qoruyub saxlamasıdır.

İnsan sosial varlıqdır və onun sosiallaşması erkən uşaqlıqdan başlanır. O, fərdin mədəniyyətə daxil olmasının bütün proseslərini (onun öyrədilməsi və tərbiyəsi, başqa insanlarla qarşılıqlı təsiri, onun cəmiyyətin dəyər və normalarını, müxtəlif sosial rolları, birgə fəaliyyət növlərini mənimsəməsi, müəyyən hüquq və vəzifələrin, baxışların, vərdişlərin və s. qazanılması) əhatə edir.

İnsanların fasiləsiz sosiallaşması prosesində mədəni təcrübənin toplanılması və nəsildənnəslə ötürülməsi baş verir. Sosiallaşma prosesində bir tərəfdən cəmiyyətin sosial-tarixi təcrübəsinin, sərvətlərin və normaların ötürülməsi, digər tərəfdən isə insanın onları mənimsəməsi baş verir. Sosiallaşma prosesinin ilkin mərhələsi insanın öz sosial yerinin axtarışıdır.

Şəxsiyyətin mənəvi keyfiyyətləri sosiallaşma prosesində formalaşır. İnsanın sosiallaşması zəruri prosesdir. İnsanın sosiallaşması daxil olduğu cəmiyyətin dəyərlər sistemini, münasibətləri, davranış normalarını, mənimsəməsi prosesidir. İnsan bu təcrübəni mənimsədikcə mədəniləşir və cəmiyyətin keyfiyyətlərini əxs edir.

Uşağın sosiallaşmasını müsbət istiqamətdə inkişaf etdirmək və çatışmazlıqları diqqətlə araşdırıb aradan qaldırılması üçün istifadə olunan vasitələrin düzgünlüyünə əmin olmaq lazımdır. Nağılların əhəmiyyəti haqqında söylədiyimiz fikirlər bir daha sübut edir ki, tərbiyənin bütün məsələlərinə dair nağıllarda zəngin material vardır və nağıllar həm də məktəbəqədər yaşlı uşağın sosiallaşması üçün əsrlərlə istifadə olunan vasitədir.

Uşaq vaxtı baş verən sosiallaşma prosesi insana cəmiyyət üçün lazım olan müəyyən məlumatları və bacarıqları qazandırır. Lakin təbii ki, bu qazanılanlar həyatın tamamı üçün kifayət deyildir. Sosiallaşma və sosial rol dəyişmə həyatın hər mərhələsində davam edir. Ona görə də bütün yaş dövründə insanın sosiallaşmağa ehtiyacı vardır. Sonrakı yaş dövrlərində insanın sosiallaşması uşağın sosiallaşması ilə müqayisədə fərqlidir. Çünki onda xarakter artıq tam formalaşmışdır. Bu zaman insan yeni bir mühitə daxil olduqda qazandığı rolları öz xarakterinə uyğunlaşdırmağa çalışır. Ona görə də uşağın sosiallaşması prosesinə kiçik yaşlardan əhəmiyyət vermək lazımdır.

Uşağın yetkin şəxsiyyət ola bilməsi üçün sosiallaşma prosesi olaraq adlandırdığımız mərhələlərdən keçməsi, başqa sözlə, cəmiyyətlə bütünləşməsi vacibdir. Bu mərhələlər arasında ailə, ətraf mühit və məktəbəqədər müəssisə əhəmiyyətli rol oynayır.

Uşaqların sosiallaşması üçün valideynlərin üzərinə çox iş düşür. Valideynlər uşaqlarına evdən kənarda yaşına uyğun fərqli sosial çevrələr yaratmalı, boş zamanda faydalı fəaliyyətlərə yer verməli, uşağın bacarıq və marağını ön plana çıxaracaq məkanlar yaratmalıdırlar.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, uşaqların sosiallaşması məqsədilə mühüm vasitə kimi xalq pedaqogikasının geniş yayılmış növü olan nağıllardan istifadə edilməsinin əhəmiyyəti göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Nağıllardan məktəbəqədər müəssisələrdə məşğələdə, məşğələdənkənar vaxtlarda və ailələrdə müntəzəm istifadə edilməsi uşaqların sosiallaşmasına mühüm təsir göstərəcəkdir.

**Problemin aktuallığı:** İnsanın sosiallaşması erkən uşaqlıqdan başlayır. Ona görə də məktəbəqədər yaşdan başlayaraq uşaqların sosiallaşmasında əsrlər boyu böyük rol oynayan nağıllardan düzgün və yerində istifadə etmək vacibdir.

## Ədəbiyyat:

1. Əliyeva S. Xalq pedaqogikasında tərbiyə məsələləri. Bakı, 2016.
2. Azərbaycan nağılları. Bakı, 2005.
3. Mursaqulova R., Cəmilzadə S. Uşaqlarda əxlaqi keyfiyyətlər tərbiyəsi. Bakı, 2000.

**E-mail**: aliyevasedaqet.29@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **Ş. Baxışova**,
*ped.ü.fəls.dok, dos*. **S. Sadıqova**
**Redaksiyaya daxil olub:** 08.11.2018